Kredo 2019.- 27 iyun.- S.14.

# Milli qəhrəman Vüqar Hüseynov anıldı




Binəqədi rayonunun Sulutəpə qəsəbəsində fəaliyyət göstərən Milli Qəhrəman Vüqar Hüseynovun adını daşıyan Cəbrayıl rayonu, Daşkəsən kənd orta məktəbində Milli Qəhrəmanın anadan olmasının 50 illiyi ilə bağlı anım tədbiri keçirildi. Dövlət Himninin səslənməsilə başlanan tədbiri məktəbin direktoru İlqar Rüstəmov açdı. Vüqar Hüseynovun və ümumilikdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Məktəbin direktoru qeyd etdi ki, vaxtilə bu məktəbdə Milli Qəhrəmanın atası Tofiq müəllim 10 ildən çox direktorun müavini işləyib. Bu gün səhhəti ilə bağlı bu tədbirdə iştirak edə bilmir. Qardaşları Həbiblə Fuadın iştirak etdiklərini diqqətə çatdırdı. Daha sonra sözü rayon İcra Hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyevə verdi.

Arif müəllim çıxışına başlamazdan öncə RİH-nin başçısı Kamal Həsənovun tədbir iştirakçılarına salamlarını çatdırdı, onun möhtərəm prezidentimizin Qarabağa qayıdışın qapısı adlandırdığı Cocuq Mərcanlıda olduğunu bildirdi. Daha sonra qeyd etdi ki, bu ərəfədə "Xudafərin" qəzetinin baş radaktoru Şakir müəllimin "Cəbrayıllı Milli Qəhrəmanlar" kitabı işıq üzü görüb ki, orada da Vüqar Hüseynovun qısa və şərəfli ömür yolu haqqında dəyərli məlu-matlar əksini tapıb. Belə bir fikir var ki, aqibətini fikirləşəndən qəhrəman olmaz. Bu mənada Vüqar Hüseynovun qəhrəmanlığı təsadüfi deyil. Biz onun həyat yolunu izlədikcə, doğrudan da, onun sanki elə qəhrəmanlıq üçün doğulduğunun fərqinə varırıq. Böyük Vətən müharibəsində həmyerlimiz Cəmil Əhmədov 20 yaşında ikən şücaət göstərib Sovet İttifaqı Qəhrəmanı adı almışdı. Bu qəhrəmanlığın davamı olaraq müstəqillik qazanmış respublikamızda da Milli Qəhrəmanlar yetişdi, onlardan biri də Vüqar Tofiq oğlu Hüseynovdur. O, bizim qəlbimizdə daim yaşayacaqdır. Vaxt gəlsin ki, biz belə tədbirləri Cəbrayılımızda keçirək. Sonda üzümü onun qardaşlarına tuturam: başı-nızı dik tutun ki, Vüqar kimi qəhrəman qardaşınız var.

Rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanov iştirakçıları salamlayıb qeyd etdi ki, tədbirlər planımıza uyğun olaraq hər bir qəhrəmanımız haqda belə silsilə tədbirlər keçiririk. O Qəhrəmanlıq təsadüfdən deyil, qəhrəmanlıq təsadüfən yaranmır. Biz V. Hüseynovun yığcam və mənalı ömür yolu ilə tanış olduqca bu qənaətimiz daha da möh-kəmlənir. Daha sonra Milli Qəhrəmanın döyüş yoluna yığcam ekskurs edən Təhşil Şöbəsinin müdiri bildirdi ki, qəhrəmanların həyat yolu özü bir tərbiyədir, bir fəlsəfədir. İnanıram ki, hələ bundan sonra da içərimizdən yeni-yeni Vüqarlar, Vahidlər, Şikarlar, Mətləblər, Kazımlar, Akiflər çıxacaq. Bu gün münasibətilə Milli Qəhrəmanın qardaşlarını təbrik edirəm. Çünki Vüqar ölməyib, o, əbədiyyətə qovuşub...



Vüqarın qardaşı Həbib müəllimə söz verildi:

- Mən 1971-ci ildənəm, məndən iki yaş böyük idi. Mən bu gün rayon rəhbərliyinə, tədbiri keçirənlərə minnətdarlığımı bildirirəm. Bu tədbirin əhəmiyyəti böyükdür. Ona görə ki, əsas odur ki, tarixdən lazımi ibrət götürməyəndə, tarix təkrarlanır. Vuruşan hər kəs milli Qəhrəmandır. Gənc nəslə aşılamaq lazımdır ki, biz müstəqillik qazananda ermənilər təsadüfən əl-ayağımıza dolaşmırdılar. Düşmənlərimiz amansız və mənfurdur. Xəstəyə, şikəstə, uşağa-qadına əl qaldırmazlar, amma ermənilərin hələ ziyalısı sayılan Zor Balayan vəhşicəsinə uşağın dərisini soy-maqdan həvəslə danışır. Onlar Qafqazın yerli sakinləri deyiblər, onları ruslar Qafqaza sırıyıblar ki, istifadə etsinlər məqamı gələndə.

Vüqar əslində uzun ömür yaşadı, yəni şərəflə yaşadı, tarixə, millətə öz adını yazdırdı. Axırıncı döyüşdə İmişlidən olan bir oğlanla qalıb, döyüşüb



və 12 nəfər polis yoldaşını ölümdən xilas edib. Mixail Qorbaçovun imzası ilə Qızıl Ulduz ordenilə təltif olunub. Ulu öndərin imzası ilə Milli Qəhrəman adına layiq görülüb. Bu məktəb bizim hər birimiz üçün əzizdir. Atamız Tofiq müəllim səhhətilə bağlı burada iştirak etmir. Biz gərək uşaqları elə tərbiyə edək ki, gələcəkdə öz layiqli yerlərini tutsunlar, nə işin-peşənin dalınca getsələr, hətta fəhlə də olsalar, öz işlərini layiqli tutsunlar. Bir daha bu tədbiri təşkil edənlərə minnətdarlığımı bildirirəm.

Daşkəsən kəndinin nümayəndəsi Qabil Quliyev qeyd etdi ki, Vüqara dərs deyib. O, dərslərini çox yaxşı oxuyur, hüquqşünas, polis olmaq istəyirdi. Sonradan o Xüsusi Təyinatlı Millis Dəstəsinə qoşuldu, döyüşlərə yollandı. O, məktəbin ictimai işlərində çox fəallıq göstərərdi. Allah ona nə verməmişdi: gözəl boy-buxun, sağlamlıq, idmançı cüssəsi vardı. Xocalı, Ağcakənd və bir sıra döyüş bölgələrində qəhrəmancasına döyüşdü. 22 yaşında şəhid oldu, quşlar, daşlar, ağaclar da sanki onda ağlayırdı. İki yerdən yarası vardı. Yaralanandan sonra təxminən bir saat yaşamışdı, hərbi xəstəxanaya çatmamış dünyasını dəyişmişdi. Adı məktəbə verilmişdi, məktəbin qarşısında büstü qoyulmuşdu. Azərbaycanda ilk doqquz nəfər Milli Qəhrəmandan biri Vüqar idi.

SHXÇDX-nın Cəbrayıl rayon bölməsinin əməkdaşı Rəfayıl Xəlilov, QMƏVŞAİB-in rayon şöbəsinin sədri Səbuhi Hüseynov, "Açıq səma" qəzetinin baş redaktoru, şəhidin dayısı oğlu Şamo Rizvanov və başqaları çıxışlarında Milli Qəhrəman Vüqar Hüseynovun şərəfli ömür yolundan söhbət açdılar.

Məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimləri Aynur Həşimova və Ramilə İsmayılovanınn təşkilatçılıqları ilə keçirilən tədbirin bədii hissəsində şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi, slayd nümayiş olundu, Vüqar Hüseynovun həyatını əks etdirən səhnəciklər göstərildi.

Sonda şəhidin qardaşı Həbib Hüseynov bir daha tədbirin təşkilatçılarına təşəkkürlərini ifadə etdi.

***Şakir** Əlifoğlu*